

**Aysel ƏLİZADƏ**

Vaqif Səmədoğlu ilə 12 il əvvəl müsahibəm olub. Arada söhbət zamanı ondan misal çəkirəm, unudulmaz danışırdı. Nədən qorxursuz? - deyə soruşdum. - Müstəqilliyimizi itirəcəyimizdən qorxuram, - dedi. Azərbaycanın müstəqilliyinə təhlükə hiss edirdi. Ölkədən narahat idi. Öyrənməli çox şey vardı onda.

Çox müsahibəm olub, onun dedikləri kimi yadımda qalan fikir azdı. "Çöldə yemək yesəm də, evə gedəndə xanımın bişirdiyini ləzzətlə, təşəkkürlə yeyirəm. Zəhmət çəkib hazırlayıb, qırmaq olmaz", - demişdi. "Kişi qadın uğrunda savaşar, qadın uğrunda ölər, sevgisinə sahib çıxar", - demişdi.

Bir də uşaqlarla bağlı fikirlərini xatırlayıram. "Bir gün qızım nəvəmə qışqırdı, soruşdum, nə edirsən, tərbiyə edirsən? Əvvəlcə özünü tərbiyə elə. Uşağa qışqırmazlar". Kaş sağ olardı. Danışacaq, bölüşəcək koloritli, təcrübəli insanlara ehtiyacımız var. Sevimli idi, iynəsi də vardı, sanca bilərdi, çox da kövrək tərəfi vardı. Sual vermişdim: "Niyə Hüseyn ("Bəxt üzüyü"ndəki obraz) Kefli İsgəndəri xatırladır?" Baxdı, baxdı, fikrə getdi: "Görünür, hələ həqiqəti ayıq başla deyə bilmirik", - söylədi.